Şirkət olaraq biz bütün oyunçularımızın təqdim etdiyimiz xidmətlərdən zövq almasını istəyirik. Bu çərçivədə məsuliyyətli oyun anlayışı ilə bu həzzin davamlı olmasını, insanlara, ailələrə və cəmiyyətə zərər verməməsini istəyirik. Məqsədimiz odur ki, oyunçularımız qalib gələrkən əylənsinlər.

Buna görə də, bu ildən başlayaraq, “Azərlotereya” ASC öz fəaliyyətində Avropa Lotereyaları və Toto Assosasiyasının "Məsuliyyətli Oyun" standartlarını tətbiq etməyə başlamışdır.

Məsuliyyətli oyun standartları həm milli qanunvericilikdən, həm də üzvü olduğumuz Dünya Lotereya Assosiasiyasının (WLA) və Avropa Lotereyalar və Toto Assosiasiyasının (The European State Lotteries and Toto Association) sərt üzvlük şərtlərindən irəli gələn ictimai əhəmiyyətli prinsiplər toplusudur. Bəs bu standartlar nəyi nəzərdə tutur?

- Məsuliyyətli oyun standartları o deməkdir ki, ancaq yetkinlik yaşına çatmış şəxslər şans oyunlarında iştirak edə bilərlər. Bu təkcə o demək deyil ki, biz uşaqlara bilet satmırıq. Bu həm də o deməkdir ki, biz marketinq fəaliyyətimizdə də yetkinlik yaşına çatmayan şəxslərə yönəlmirik;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz oyun şərtlərinin qanunvericiliyin (lotereya, reklam və sair) tələblərinə uyğun tərtib edilməsinə nəzarət edirik;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz şans oyunlarında iştirakın cəmiyyətdə nüfuz qazanmaq vasitəsi olması fikrini yaratmırıq;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz hər bir şans oyunun şərtləri və uduş ehtimalları barədə doğru və dürüst məlumat veririk və uduş şansları barədə yanlış və çaşdırıcı məlumatlar vermirik;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz şans oyunlarında iştirakı insanların şəxsi və maliyyə problemlərinin həlli yolu, investisiya aləti və məşğulluq növü kimi təqdim etmirik və şans oyunlarının sadəcə bir əyləncə olması fikrini cəmiyyətə çatdırırıq;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz oyunlarda iştirak üçün kredit imkanları təqdim etmirik;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz şans oyunlarının bəzi oyunçularda asılılıq yarada biləcəyini anlayır və onlara belə asılılığın olub olmamasını yoxlamaq üçün diaqnostik test təqdim edir və peşəkar psixoloq yardımı almaq imkanı yaradırıq;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz oyunçuları məsuliyyətlə oynamağı çağıran çağırışı saytımızda yerləşdiririk, oyunçular arasında oyun savadlılığını artırmağa çalışır, oyunçuları əyləncəni yaşamağa, məlumatlı və ölçülü (yəni büdcəni aşmamaq və uduzulan məbləği qaytarmaq üçün daha böyük məbləğ xərcləməmək) olmağa, 18+ məhdudiyyətinə riayət etməyə çağırırıq;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz satıcılarımızın satış zamanı məsuliyyətli satışı necə həyata keçirmələrini həm yazılı hüquqi sənədlərlə, həm də təlimlər keçirməklə izah edirik;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz virtual mühitdə oyunçulara şəxsi hesabı deaktiv etmək imkanı veririk;

- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz oyun çeşidinin, onun nominal dəyərinin və oyun sayının mövsüm və iqtisadi vəziyyətin şərtlərinə uyğun olaraq planlaşdırırıq;
- Məsuliyyətli oyun standartları o deməkdir ki, biz məsuliyyətli oyun tədbirlərinin necə icra olunduğunu və cəmiyyət tərəfindən necə qəbul olunduğunu yoxlamaq üçün mütəmadi maraqlı tərəflərin nümayəndələri ilə görüşlər və müstəqil bazar araşdırmaları keçirir, "Gizli müştəri", Əlaqə Mərkəzinə gələn zənglər və sair metodlarla toplanmış məlumatları toplayır və dəyərləndiririk.